# Azərbaycan Respublikası Nazirlər Kabineti

# Yerin təkindən istifadəyə xüsusi razılığın (lisenziyanın) *və ya icazənin* birbaşa danışıqlar əsasında verilməsi hallarının təsdiq edilməsi haqqında

# Qərar № 111

***Bakı şəhəri, 30 iyun 2000-ci il***

«Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 aprel tarixli, 701 nömrəli Fərmanı ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Yerin təkindən istifadəyə xüsusi razılığın (lisenziyanın) *və ya icazənin* birbaşa danışıqlar əsasında verilməsi halları» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ.***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2000-ci il, № 6, maddə 476) («VneshExpertService» LLC).***

***7 yanvar 2005-ci il tarixli, 5 nömrəli; 13 sentyabr 2006-cı il tarixli, 207 nömrəli; 13 dekabr 2007-ci il tarixli, 200 nömrəli qərarlara əsasən əlavə və dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2000-ci il 30 iyun tarixli,*
*111 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Yerin təkindən istifadəyə xüsusi razılığın (lisenziyanın) *və ya icazənin* birbaşa danışıqlar əsasında verilməsi halları

1. Yerin təkindən istifadəyə xüsusi razılığın (lisenziyanın) *və ya icazənin* birbaşa danışıqlar əsasında verilməsi Azərbaycan Respublikası Prezidentinin ~~1997-ci il 4 oktyabr tarixli, 637 nömrəli və~~ 1999-cu il 13 fevral tarixli, 102 nömrəli fərmanlarına əsasən yerin təkindən istifadənin növləri nəzərə alınmaqla öz səlahiyyətləri çərçivəsində *Ekologiya və Təbii Sərvətlər Nazirliyi* və *Fövqəladə Hallar Nazirliyi* tərəfindən həyata keçirilir.

2. Yerin təkindən istifadəyə lisenziya *və ya icazə* birbaşa danışıqlar əsasında aşağıdakı hallarda verilir:

- yerin təkindən istifadəyə müsabiqə (hərrac) elan edilmədikdə;
- yerin təkindən istifadəyə təkrar müsabiqə (hərrac) elan edilən müddətdə müsabiqədə (hərracda) iştirak etmək üçün müraciət olunmadıqda və yaxud da bir iddiaçı müraciət etdikdə;
- yerin təkində bütövlüklərdə qalan və yaxud da əvvəllər müəyyən səbəbdən (iqtisadi, dağ-texniki, mineral-xammalın keyfiyyətinin dəyişməsi və s.) yer təkində saxlanmış (konservasiya edilmiş) qalıq ehtiyatlarının istismarına;
- yeraltı sulara tək-tək quyuların qazılmasına və istifadəsinə (mərkəzləşdirilmiş su təchizatı mənbəyi olan yeraltı sular istisna olmaqla);
- təbii bulaqlardan istifadəyə;
- faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı məqsədi ilə verilən yer təki sahələri mürəkkəb dağ-mədən-geoloji quruluşa malik olmadıqda, sadə konstruksiyalı yeraltı qurğuların tikilməsi və istismarı həyata keçirildikdə;
- əvvəllər dağ-mədən ayırmasını, yaxud yerin təkindən istifadə hüquqlarını başqa qaydada almış müəssisələr hazırda yerin təkinin istifadəsi (əgər bu istifadə növlərinə lisenziya *və ya icazə* alınması tələb olunursa) ilə əlaqədar fəaliyyət göstərirsə.

3. Lisenziya *və ya icazə* tələb olunan fəaliyyət növü ilə hazırda lisenziyasız *və ya icazəsiz* fəaliyyət göstərən müəssisələr texniki, maliyyə və ya hər hansı başqa səbəbdən lisenziya *və ya icazə* almaq imkanına malik olmadıqları təqdirdə, onlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən yer təkindən istifadə hüququndan məhrum edilirlər.

4. Yerin təkindən istifadəyə xüsusi razılığın (lisenziyanın) *və ya icazənin* birbaşa danışıqlar əsasında verilməsi qaydası yerin təkindən istifadəyə lisenziyanın verilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş müvafiq qaydalarla tənzimlənir.